# İlin sonuna kimi Avropa İttifaqı ilə Azərbaycan arasında yeni saziş imzalanacaq



Mayın 7-də Milli Məclisin Sədri Oqtay Əsədov Avropa İttifaqı-Azərbaycan Parlament Əməkdaşlıq Komitəsinin sədri, Avropa Mühafizəkarlar və İslahatçılar Qrupunun üzvü, Böyük Britaniyadan olan deputat Sayyad Kərimin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.

Oqtay Əsədov bildirib ki, Azərbaycan dövləti Avropa Parlamenti və onun qurumları ilə əlaqələrin inkişafında maraqlıdır və bu istiqamətdə səylərini əsirgəmir. Belə səfərlərin, qarşılıqlı görüşlərin əlaqələrin inkişafı baxımdan çox böyük əhəmiyyəti var.

Spiker qonaqlara xatırlatdı ki, Avropa İttifaqı ilə Azərbaycan, o cümlədən Milli Məclis arasında əlaqələr 1999-cu ildə qəbul edilmiş tərəfdaşlıq sazişi əsasında qurulub və sevindirici haldır ki, 2017-ci ildən tərəflər arasında yeni sazişin bağlanması istiqamətində işlər gedir. Ən önəmlisi isə əlaqələrin inkişafında hər iki tərəf maraqlıdır və orta dəyərlərə əsaslanır.

Yeni sazişin bu ilin sonuna qədər imzalanacağını deyən Milli Məclisin Sədri bunu əlaqələrin yaxşı göstəricisi kimi dəyərləndirdi və əməkdaşlığın müxtəlif istiqamətlərdə həyata keçirildiyini diqqətə çatdırdı. Bildirdi ki, Azərbaycan bu gün Avropa İttifaqı üçün əsas ticarət tərəfdaşlarından biridir. Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum neft-qaz kəmərləri, həmçinin TANAP və TAP layihələri Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında mühüm rol oynayır.

Oqtay Əsədov görüş zamanı qonaqların diqqətinə çatdırdı ki, Avropa İttifaqı ilə Azərbaycanın əlaqələrinə xələl gətirə bilən və Azərbaycanı istəməyən bəzi qüvvələr tərəfindən təəssüf doğuran hallar da olub: “Amma biz istərdik münasibətlərə xələl gətirən çatışmazlıqlara yol verilməsin və əməkdaşlıqda ədalətlilik, düzlük, strateji və milli maraqlar hər zaman diqqət mərkəzində saxlanılsın”.

Qarşılıqlı hörmət və ehtirama görə məmnun olduğunu bildirən Avropa İttifaqı-Azərbaycan Parlament Əməkdaşlıq Komitəsinin sədri Sayyad Kərim öncə Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi münasibətilə Milli Məclisin deputatlarına və Azərbaycan xalqına təbriklərini çatdırdı. Qonaq qeyd etdi ki, son iki il ərzində Azərbaycan ilə Avropa İttifaqı arasında əməkdaşlıq çox müsbət və konstruktiv istiqamətdə inkişaf edir. O, təmsil etdiyi qurumun Azərbaycanla iqtisadi, nəqliyyat, enerji, investisiya, parlamentlərarası əlaqələr və digər sahələrdə əməkdaşlığı üçün böyük imkanların olduğunu dedi.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da müzakirələr aparıldı.

***Elnur HADIYEV,***
***Fərman BAĞIROV (foto),***
***“Azərbaycan”***

Azərbaycan.- 2018.- 8 may.- S.2.